**AZƏRBAYCAN RESPUBLİKASININ**
**STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ**
**DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI**

**Q Ə R A R № 150111500016**

*Bakı şəhəri* *"14" dekabr 2015-ci il*

**Dövlət standartlarının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1998-ci il tarixli 26 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydaları"nın 2, 3, 6 və 7-ci bəndlərini və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 31 avqust tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi haqqında" Əsasnamənin 8.12 və 8.45-cibəndlərini rəhbər tutaraq **qərara alınır**

1. Beynəlxalq, Avropa və Rusiya Federasiyasının milli standartları əsasında hazırlanmış aşağıdakı dövlət standartları təsdiq edilsin.

1.1. AZS 810-2015 (CODEX STAN 310-2013) "Nar" (1 nömrəli əlavə).

1.2. AZS 837-2015 (CODEX STAN 152-1985) "Buğda unu"(2 nömrəli əlavə).

1.3. AZS 838-2015 (CODEX STAN 33-1981) "Zeytun yağları və cecələrdən sıxılmış zeytun yağları" (3 nömrəli əlavə).

1.4. AZS 839-2015 (CODEX STAN 87-1981) "Şokolad və şokolad məhsulları" (4 nömrəli əlavə).

1.5. AZS 840-2015 (CODEX STAN 279-1981) "Kərə yağı" (5 nömrəli əlavə).

1.6. AZS 841-2015 (CAC/MRL-2-2015) "Yeyinti məhsullarında baytarlıq preparatlarının qalıqlarına dair yol verilən maksimum konsentrasiyalar (YKM) və risklərin idarəedilməsi üzrə tövsiyyələr" (6 nömrəli əlavə).

1.7. AZS 842-2015 (CAC/RCP1-2015) "Qida gigiyenasının ümumi prinsipləri-tövsiyyə edilən beynəlxalq təcrübə kodeksi" (7 nömrəli əlavə).

1.8. AZS 843-2015 (ГОСТ Р 51074-2003) "Qida məhsulları. İstehlakçı üçün məlumat. Ümumi tələblər" (8 nömrəli əlavə).

1.9. AZS 856-2015 (ГОСТ Р 51204-98) “Dəmir yolunun kontakt şəbəkəsi üçün çubuqlu polimer izolyatorlar. Ümumi texniki şərtlər” (9 nömrəli əlavə).

1.10. AZS 860-2015 (ГОСТ Р 51377-99) “Məişət qızdırıcı qaz konvektorları təhlükəsizlik tələbləri və sınaq üsulları” (10 nömrəli əlavə).

2. Qanunvericilik və hüquq ekspertizası şöbəsinə (E.Cəbrayılov) tapşırılsın ki, bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş dövlət standartının Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gündən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Texniki tənzimləmə və standartlaşdırma şöbəsinə (N. Tağıyev) tapşırılsın ki, bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş dövlət standartının qeydiyyata alınmasını təmin etsin.

4. Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutuna (X.Məmmədov) tapşırılsın ki, bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş dövlət standartının texniki tənzimləmə və standartlaşdırma üzrə texniki normativ hüquqi aktların dövlət fonduna daxil edilməsini təmin etsin.

5. Ümumi şöbəyə (X.Həsənovaya) tapşırılsın ki, aidiyyəti struktur bölmələrini bu Qərarla tanış etsin.

6. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikası Standartlaşdırma,**
**Metrologiya və Patent üzrə Dövlət Komitəsinin**
**sədri** **Ramiz Həsənov**

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 14 dekabr 2015-ci il tarixli 150111500016 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

1 nömrəli əlavə

**AZƏRBAYCAN RESPUBLİKASININ**

**DÖVLƏT STANDARTI**

_

**NAR**

**AZS 810-2015**
**(CODEX STAN 310 – 2013)**

_

## MÜQƏDDİMƏ

1. "Qida məhsullarının standartlaşdırılması üzrə" Texniki Komitə (TK 07) tərəfindən hazırlanıb və təqdim edilib. Kodeks Alimentarius Milli Komitəsi tərəfindən dövlət standartı kimi qəbul edilməsi məqsədəmüvafiq hesab edilmişdir.

2. Bu standart, CODEX STAN 310 – 2013, «Codex Standard for pomegranate» standartının autentik tərcüməsidir.

3. İlk dəfə tətbiq edilir.

4. Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama vaxtı 2020-ci il, dövrü yoxlama müddəti 5 ildir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

---

**Nar**

**AZS 810-2015**

**Standard for pomegranate** **(CODEX STAN 310 – 2013)**

---

## 1. TƏTBİQ SAHƏSİ

Bu standart, *Punicacea* fəsiləsinin *Punica granatum L.* növünün əmtəə nar sortlarına aid olan, istehlakçılara ilkin hazırlanma və qablaşdırılmadan sonra təzə halda çatdırılan meyvələrə şamil edilir. Bu standart sənaye emalı üçün nəzərdə tutulmuş nar meyvələrinə tətbiq edilmir.

## 2. KEYFİYYƏTƏ DAİR MÜDDƏALAR

### 2.1 Minimal tələblər

Bütün siniflərə aid edilən nar meyvələri, hər bir sinfin ayrı–ayrılıqda tələbləri və yol verilə bilən kənara çıxamaları nəzərə alınmaqla aşağıdakı kimi olmalıdır:

- bütöv;
- keyfiyyətli; istifadəyə yararsız olan çürümüş və zədələnmiş məhsullar yol verilməzdir;
- təmiz, hər hansı bir görünən çirkləndirici hissəciklərsiz;
- ziyanvericilər və onların vurduğu məhsulun xarici görünüşünü korlaya biləcək zədələrsiz;
- məhsul soyudulan anbardan çıxarılma zamanı temperatur dəyişikliyinin təsirindən yaranan kondensat istisna olmaqla hər hansı səthi nəmliyə malik olmamalıdır;
- kənar tam və/və ya qoxusuz;
- şaxtanın vurduğu zədəsiz;
- aşağı və/və ya yüksək temperaturların vurduğu zədələrsiz;
- narın çəyirdək ətrafı toxumasının zədələnməsinə səbəb olan günəş yanmaları olmamalıdır.

2.1.1 Nar meyvələri becərildiyi yerin və meyvə sortunun xüsusiyyətlərinə uyğun olaraq müəyyən inkişaf və yetişmə səviyyəsinə çatmalıdır.

Yetişmə dərəcəsi və nar meyvələrinin vəziyyəti elə olmalıdır ki:

- nəqliyyat – yüklənmə əməliyyatlarına tab gətirsin;
- müəyyən edilmiş yerə (təyinat məntəqəsinə) qənaətbəxş vəziyyətdə çatdırılsın.

**2.2 Təsnifat**

Nar meyvələri aşağıda sadalanan 3 sinfə bölünür:

2.2.1 Əla növ ("Ekstra" sinif)

Bu sinfə aid olan nar meyvələri yüksək keyfiyyət dərəcəsinə malik olmalıdır. Onlar aid olduqları sortun xüsusiyyətlərinə uyğun olmalıdır. Meyvələr, onun xarici görünüşünü korlamayan, keyfiyyətinə, bütövlüyünə və qablaşdırmada gözəl əmtəə görünüşünə xələl gətirməyən kiçik səthi qüsurlar istisna olmaqla hər hansı bir nöqsana malik olmamalıdır.

2.2.2 1-ci növ

Bu sinfə aid olan nar meyvələri yaxşı keyfiyyətə malik olmalıdır. Onlar aid olduqları sortun xüsusiyyətlərinə uyğun olmalıdır. Məhsulun xarici görünüşünün korlamamaq, onun keyfiyyətinə, bütövlüyünə və yaxşı əmtəə görünüşünə xələl gətirməmək şərti ilə aşağıda sadalanan kiçik qüsurların olmasına yol verilir:

formanın kiçik qüsurları;

rəngin kiçik qüsurları;

çatlar daxil olmaqla, qabığın kiçik qüsürları.

Bütün hallarda zədələr meyvənin çəyirdək ətrafı toxumasını zədələməməlidir.

2.2.3 2-ci növ

Bu sinfə öz keyfiyyətlərinə görə yuxarıda sadalanan heç bir qrupa şamil olunmayan, lakin 2.1 bölməsində göstərilmiş minimal tələblərə cavab verən nar meyvələri daxildir. Keyfiyyət, bütövlük və əmtəə görünüşü kimi əsas xüsusiyyətləri qoruyub saxlamaq şərti ilə aşağıda göstərilən qüsurların olmasına yol verilə bilər:

forma qüsurları;

rəng qüsurları;

çatlar daxil olmaqla, qabığın kiçik qüsurları.

Bütün hallarda zədələr meyvənin çəyirdək ətrafı toxumasını zədələməməlidir.

## 3.KALİBRLƏMƏYƏ DAİR MÜDDƏALAR

Mövcud ticarət təcrübəsinə uyğun olaraq, nar meyvələri miqdarına, diametrinə və ya kütləsinə görə kalibrlənə bilər. Bu halda, qablaşdırma aşağıdakı kimi markalanmalıdır.

A. Miqdara görə kalibrləmə zamanı, ölçü hər qablaşdırmaya düşən meyvələrin sayı ilə müəyyən edilir.

B. Nar meyvələrinin kalibrlənməsi diametrə görə aparıla bilər (hər bir meyvənin maksimal en diametri).

Növbəti cədvəl təxmini xarakterlidir və istəyə görə istifadə oluna bilər.

Cədvəl A – Diametr

| **Ölçüyə görə kateqoriya** | | **Diametr (mm)** |
|---|---|---|
| 1. | A | ≥81 |
| 2. | B | 71-80 |
| 3. | C | 61-70 |
| 4. | D | 51-60 |
| 5. | E | 40-50 |

C. Nar meyvələrinin kalibrlənməsi kütləyə görə aparıla bilər (hər bir meyvənin kütləsi).

Növbəti cədvəl təxmini xarakterlidir və istəyə görə istifadə oluna bilər.

Cədvəl B – Kütlə

| **Kütləyə görə kateqoriya** | | **Kütlə (q)** |
|---|---|---|
| 1. | A | ≥501 |
| 2. | B | 401-500 |
| 3. | C | 301-400 |
| 4. | D | 201-300 |
| 5. | E | 125-200 |

## 4 . YOL VERİLƏN KƏNARAÇIXMALARA DAİR MÜDDƏALAR

Hər bir qablaşdırma vahidində keyfiyyət və ölçüyə görə aid olduğu sinfin tələblərinə bütövlükdə cavab verməyən məhsulların olmasına, bu tələblərdən müəyyən kənara çıxmalara yol verilməlidir.

**4.1 Keyfiyyət üzrə yol verilən kənaraçıxmalar**

4.1.1 Əla növ

Ümumi miqdar və ya kütlədə olan meyvələrin 5% - nin verilmiş sinfin tələblərini ödəməməsi, lakin 1-ci növün tələblərinə uyğun olması və ya istisna hallarda, bu sinif üçün yol verilə bilən kənaraçıxmalara uyğun olması mümkündür.

4.1.2 1-ci növ

Ümumi miqdar və ya kütlədə olan meyvələrin 10% - nin verilmiş sinfin tələblərini ödəməməsi, lakin 2-ci növün tələblərinə uyğun olması və ya istisna hallarda, bu sinif üçün yol verilə bilən kənaraçıxmalara uyğun olması mümkündür.

4.1.3 2-ci növ

Ümumi miqdar və ya kütlədə olan meyvələrin 10% - nin verilmiş sinfin tələblərinə, həmçinin, çürümə və ya meyvəni istifadəyə yararsız edən hər hansı bir digər üsulla zədələnmə istisna olmaqla, minimal tələblərə cavab verən məhsulun olmasına yol verilir.

**4.2 Ölçü üzrə yol verilən kənaraçıxmalar**

Bütün siniflərə aid olan meyvələr üçün tələb edilən ölçü ilə eyni deyil, ona yaxın ölçüdə olan məhsulun ümumi miqdar və ya kütlədə 10% olmasına yol verilir.

## 5 . MƏHSULUN ƏMTƏƏ NÖVÜNƏ DAİR MÜDDƏALAR

**5.1 Eyni növlülük**

Hər bir qablaşdırma vahidinin tərkibi eyni növ olmalı və qablaşdırmaya daxil olan məhsullar eyni mənşəyə, sorta, keyfiyyətə və ölçüyə (əgər məhsullar kalibrlənibsə) malik olmalıdır. İstehlakçı taralarına meyvələrin keyfiyyət, sort və mənşəcə eyni növ olması şərti ilə, müxtəlif rəng və ölçüyə malik məhsullar daxil edilə bilər.

Taranın görünən hissəsi onun bütün tərkibinə uyğun olmalıdır.

**5.2 Qablaşdırma**

Nar meyvələri elə qablaşdırılmalıdır ki, onların müvafiq bütövlüyü saxlansın. Məhsulun mümkün daxili və xarici zədələnməsinin qarşısını almaq üçün, qabın içində istifadə edilən qablaşdırma materialları yeni[1],

təmiz və keyfiyyətli olmalıdır. Materiallardan, xüsusən kağız və ya əmtəə xüsusiyyətləri qeyd edilmiş etiketlərdən istifadəyə o halda icazə verilir ki, mətnin və ya markalanmanın istifadəsi zamanı toksik olmayan mürəkkəb və yapışqandan istifadə edilsin.

Nar meyvələri qaba "Tövsiyyə edilən təzə tropik meyvə və tərəvəzlərin qablaşdırma və daşınması üzrə norma və qaydalar"a (CAC/RCP 44-1995) müvafiq olaraq qablaşdırılmalıdır.

5.2.1 Taranın təsviri

Tara keyfiyyətin qorunmasını, gigiyenik tələbləri, havalandırmanı və yükləmə, daşınma və nar meyvələrinin bütövlüyünün saxlanması qaydalarına riayət edilməsini təmin etməlidir. Qablaşdırma üçün istifadə edilən taranın tərkibində yad cismlər və kənar qoxular olmamalıdır.

## 6 . MARKALANMA

**6.1 İstehlakçı tarası**

"Qablaşdırılmış qida məhsullarının markalanması üzrə ümumi standart (CODEX STAN 1 – 1985)" –ın tələblərinə aşağıdakı əlavələr tətbiq edilir:

6.1.1 Məhsulun xüsusiyyəti

Əgər məhsul qeyri şəffaf qablaşdırılmaya yerləşdirlmişdirsə, hər bir qablaşdırmanın üzərində məhsulun adı qeyd edilməlidir, bundan başqa sortun adı, sinfi, aşağıdakı kalibrləmə üsullarından hər hansı birinə uyğun olaraq: miqdara, ölçü kateqoriyasına və ölçü diapazonuna görə (meyvələr kalibrlənmişdirlərsə) ölçüsü qeyd edilə bilər.

**6.2 Nəqliyyat tarası**

Hər bir qablaşdırma vahidi haqqında aşağıda göstərilmiş məlumatlar olmalıdır və bu zaman bütün verilənlər konteynerin bir tərəfində və ya müşahidə edən sənədlərin üzərində ayrı – ayrı, aydın şəkildə yazılmış silinməyən hərflərlə yazılmalıdır.

6.2.1 Tanınma

İxracatçı, qablaşdırıcı və/və ya yük göndərənin adı və ünvanı. Tanınma kodu (məcburi deyil)[2].

6.2.2 Məhsulun xüsusiyyəti

Əgər məhsul qablaşdırmadan görünmürsə, məhsulun adı. Sortun adı (imkan daxilində).

6.2.3 Məhsulun mənşəyi

Məhsul yetişdirildiyi ölkə və rayon (məcburi deyil) və ya vilayətin və ya yerin adı.

6.2.4 Əmtəə tanınması

- növü;
- ölçü (meyvələr kalibrlənmişdirsə), aşağıda qeyd edilmiş hər hansı bir kalibrləmə üsuluna uyğun olaraq qeyd edilmiş:
  - miqdar;
  - ölçü kateqoriyası və ölçü;
  - ölçü aralığı;
- netto kütlə (məcburi deyil).

6.2.5 Yoxlama haqqında rəsmi işarə (məcburi deyil).

## 7. ÇİRKLƏNDİRİCİLƏR

7.1 Bu standartın şamil edildiyi məhsullarda çirkləndiricilərin maksimal səviyyəsi "Qida məhsulları və yemlərdə qarışıqlar və toksinlər üçün ümumi standart (AZS CODEX STAN 193 – 2014)" sənədində verilmiş göstəricilərə uyğun olmalıdır.

7.2 Bu standartın şamil edildiyi məhsullarda pestisid qalıqlarının miqdarı "Kodeks Alimetarius" Komissiyası tərəfindən təyin edilmiş maksimal səviyyələri aşmamalıdır.

## 8 . GİGİYENİK TƏLƏBLƏR

8.1 Bu standartın şamil edildiyi məhsul, "Qida məhsullarının gigiyenasının ümumi prinsiplərinin tövsiyyə edilən beynəlxalq norma və qaydaları (CAC/RCP 1 – 1969, Rev.4 – 2003)", "Təzə meyvə və tərəvəzlər üçün gigiyenik norma və qaydalar (CAC/RCP 53 – 2003)" və "Gigiyenik norma və qaydalar", "Normalar və qaydalar" kimi digər Kodeks sənədlərinin bölmələri əsasında hazırlanmalı və daşınmalıdır.

8.2 Məhsul "Qida məhsulları üçün mikrobioloji tələblərin müəyyən edilmə və tətbiq edilmə prinsipləri (CAC/GL 21 – 1997)" əsasında təyin edilmiş bütün mikrobioloji tələblərə cavab verməlidir.

Azərbaycan Respublikası Standartlaşdırma,

Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 14 dekabr 2015-ci il tarixli 150111500016 nömrəli Qərarı ilə təsdiq edilmişdir.